


Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 28 (22.939)

10 fevral 2018-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Futbol üzrə dünya çempionatı ərəfəsində dünya turnesi çərçivəsində çempionatın Kubokunun əsli FIFA-Coca-Cola və AFFA tərəfindən Azərbaycana gətirilib.

Fevralın 9-da kubok Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim olunub. Kubok futbol üzrə dünya çempionatı Kubokunun sahibi, Fransa yığma komandasının keçmiş oyunçusu, dünya futbol əfsanələrindən sayılan Kristian Karambo tərəfindən təqdim edilib.

Əfsanəvi futbolçu Kristian Karambo dünya çempionatının Kubokunun əslini Prezident İlham Əliyevə təqdim edib.

Azərbaycan Prezidenti İlham Əliyev deyib ki, tariximizdə ilk dəfə qeyd etdiyimiz bu əlamətdar hadisənin futbolumuzda, oyunçularımızda daha da böyük həvəs oyadacağına, dünyada bu ən məşhur idman növünün Azərbaycanda inkişafına kömək edəcəyinə əminəm. Biz futbolun, idmanın inkişafına kömək etməyə çalışırıq. Azərbaycanın idman sahəsində yaxşı nəticələri var.

Sonra FIFA prezidenti Canni İnfantinonun ənənəsinə uyğun olaraq FIFA-nın rəsmi nümayəndəsi xatirə hədiyyəsini Prezident İlham Əliyevə təqdim edib.




## Naxçıvanda sahibkarlarla görüş keçirilmişdir





Fevralın 9-da Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun muxtar respublikada fəaliyyət göstərən sahibkarlarla görüşü olmuşdur.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov çıxış edərək demişdir ki, həyata keçirilən tədbirlər muxtar respublikanın iqtisadi potensialının artmasına, biznes və investisiya mühitinin yaxşılaşdırılmasına şərait yaratmışdır. Ümumi daxili məhsulun həcmi artaraq 2017-ci ildə 2 milyard 701 milyon 663 min manat təşkil etmişdir. Sahibkarlığın inkişafı üçün əlverişli şərait yaradılmış, muxtar respublikada dövlət dəstəyi ilə iqtisadi fəaliyyətin müxtəlif sahələrində 60 layihə üzrə istehsal və xidmət obyektləri fəaliyyətə başlamışdır. Kiçik və orta sahibkarlığın inkişafı iqtisadi siyasətin prioritet istiqamətinə çevrilmişdir. Rayon və kənd yerlərində kiçikhəcmli təsərrüfatların yaradılması və fəaliyyətinin təşviqi tədbirləri ötən müddətdə də davam etdirilmiş, fərdi müəssisə və təsərrüfatların sayı 714-ə çatdırılmışdır. Əhalinin ərzaq təminatında ailə təsərrüfatlarının mühüm rolu nəzərə alınaraq 2017-ci ildə muxtar respublikada "Ailə təsərrüfatı məhsulları" festivalı keçirilmiş, ailə təsərrüfatı məhsulları üçün taraların satışı mağazası istifadəyə verilmiş, 386 ailə təsərrüfatından 234 min manat dəyərində məhsullar satın alınmış və 13 təsərrüfata 243 min manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir. 2017-ci ildə sahibkarlara 10 milyon manatdan çox kreditlər verilmiş, ölkə daxilində və xaricdə keçirilən 33 tədbirdə 150 sahibkarın iştirakı təmin olunmuşdur. Famil Seyidov özəl bölmənin inkişafı üçün yaradılan şəraitə görə muxtar respublika sahibkarları adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Elşad Əliyev demişdir ki, aqrar sektorda həyata keçirilən islahatlar muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin edilməsinə etibarlı zəmin yaratmışdır. Göstərilən dövlət qayğısı nəticəsində 2017-ci ildə muxtar respublika üzrə 61 min 531 hektar sahədə əkin aparılmış, sahələrdən 93 min 419 ton taxıl, 6697 ton paxlalılar, 12 min 573 ton dən üçün qarğıdalı, 750 ton dən üçün günəbaxan, 48 min 982 ton kartof,



84 min 723 ton tərəvəz, 38 min 349 ton bostan, 53 min tondan artıq meyvə, 15 min 906 ton üzüm toplanmışdır. Muxtar respublikada suvarma sistemlərinin yeniləşdirilməsi istiqamətində görülmüş tədbirlər nəticəsində son illər Culfa, Babək və Kəngərli rayonlarında, ümumilikdə, 3000 hektar sahədə qapalı suvarma şəbəkələri tikilərək istifadəyə verilmişdir. Sahibkarların müasir kənd təsərrüfatı texnikaları ilə təchizatı məqsədilə ötən dövr ərzində "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 2054 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası gətirilmiş, onlardan 1752-si lizinq və ya nağd satış yolu ilə sahibkarlara verilmişdir. Hazırda muxtar respublikada 23 süni mayalama məntəqəsi fəaliyyət göstərir. Aparılan məqsədyönlü işlər nəticəsində muxtar respublikada iribuynuzlu malların sayı 112 min 371 başa, xırdabuynuzlu heyvanların sayı 681 min 903 başa, quşların sayı 1 milyon 277 min 741 başa, arı ailələrinin sayı isə 71 min 66-ya çatdırılmışdır. Hazırda muxtar respublikada 3 ət, 13 süd, 1 gön-dəri emalı, 1 balıq konservi, 1 yem istehsalı müəssisəsi və 3 yem sexi fəaliyyət göstərir.

Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının sədri, "Cahan Holdinq" Kommersiya Şirkətləri İttifaqının direktoru Vüqar Abbasov demişdir ki, muxtar respublikada sahibkarlığın inkişafı sahəsində həyata keçirilən uğurlu siyasətin nəticəsi olaraq müasir istehsal və emal müəssisələri istifadəyə verilmiş, qabaqcıl texnologiyaların muxtar respublikaya gətirilməsi və tətbiqinə şərait yaradılmışdır. "Cahan Holdinq" Kommersiya Şirkətləri İttifaqı da yaradılan şəraitdən istifadə edərək fəaliyyətini genişləndirmişdir. Hazırda 22 əsas və bir neçə törəmə şirkəti özündə birləşdirən "Cahan Holdinq" Kommersiya Şirkətləri İttifaqı ticarət-kommersiya fəaliyyəti, ərzaq və qeyri-ərzaq məhsulları istehsalı, sənaye və xidmət sahələri üzrə fəaliyyət göstərir. İstehsal olunan məhsullar daxili tələbatı ödəməklə yanaşı, həm də ixrac olunur. 2017-ci ildə şirkətin dam örtükləri və istilik panelləri zavodu və tütünyetişdirmə təsərrüfatı fəaliyyətə başlamış, 210 yeni iş yeri açılmışdır. Bu il isə şirkət tərəfindən aylıq istehsal gücü 1500 ton olan avtomatlaşdırılmış plastik boru, profil və aksesuarların istehsalı sahəsinin yaradılması nəzərdə tutulur.

Şərur rayonunun Çərçiboğan kəndində yaradılan istixana kompleksinin sahibkarı Abdulla Adıgözəlov çıxış edərək demişdir: Kənd təsərrüfatı istehsalçılarına dövlət dəstəyindən bəhrələnərək 2013-cü ildən müasir istixana kompleksinin yaradılması sahəsində fəaliyyətə başlamışıq. İllik istehsal gücü 100 tondan çox olan istixanada müasir texnologiyaların tətbiqi bazara rəqabətədavamlı məhsul çıxarılmasına imkan verir. Bu il istixana kompleksini daha da genişləndirməyi nəzərdə tutmuşuq. Təsərrüfatımızda istixana kompleksi ilə yanaşı, 7,5 hektar ərazidə yeni ərik, gavalı, heyva və üzüm bağı salmışıq. Cari ildə 2,5 hektar ərazidə yerli sortlardan ibarət şaftalı bağının salınmasını təmin edərək bağçılıq təsərrüfatımızı 10 hektara çatdıracağıq. Artıq zəhmətimizin bəhrəsini görürük. Ötən il təsərrüfatımızdan 20 ton meyvə, 100 ton tərəvəz məhsulu toplamış və satışını həyata keçirmişik. Əsas məqsədimiz əhalinin tərəvəz məhsullarına olan tələbatını ödəmək və ixrac imkanlarımızı artırmaqdır. Abdulla Adıgözəlov yaradılan şəraitə görə minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan Muxtar Respublikasının yaranmasının 94-cü ildönümünün tamam olduğunu bildirmiş, bu münasibətlə tədbir iştirakçılarını, bütün muxtar respublika əhalisini təbrik etmiş, sosial-iqtisadi inkişafda əməyi olanlara təşəkkürünü bildirərək demişdir: Müasir dövrdə hər bir ölkənin sosial-iqtisadi inkişafı onun malik olduğu sahibkarlıq subyektlərinin fəaliyyəti, onlar üçün yaradılan şəraitlə ölçülür. Ümummilli liderimiz Heydər Əliyev də deyirdi ki, ***"Sahibkarların səmərəli işləməsi Azərbaycanın iqtisadi inkişafını təmin edən amildir. Ona görə də biz sahibkarlığın inkişafına dövlət siyasətimiz kimi baxırıq. Azərbaycanın sosial-iqtisadi inkişafını bilavasitə sahibkarlıqla, onun inkişafı ilə bağlayırıq".***

Ali Məclisin Sədri demişdir: Bu gün Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında sahibkarların fəaliyyəti üçün hərtərəfli şərait, əlverişli biznes və investisiya mühiti yaradılıb. Vergi və gömrük güzəştlərinin, dövlət qeydiyyatında "bir pəncərə" prinsipinin tətbiqi sahibkarlıq fəaliyyətinin inkişafına böyük təkan verib. Muxtar respublikada dövlət-sahibkar münasibətlərinin düzgün qurulmasının nəticəsidir ki, ümumi daxili məhsulda özəl bölmənin xüsusi çəkisi artaraq 89 faizə çatıb. Hazırda muxtar respublikada istehsal olunan kənd təsərrüfatı məhsulunun hamısı,

Ardı 2-ci səhifədə






sənaye məhsulunun 95 faizi, tikintidə görülmüş işlərin 79 faizi, nəqliyyat xidmətlərinin 78 faizi, rabitə xidmətlərinin 83 faizə qədəri, ticarət və ictimai iaşə xidmətinin 100 faizi özəl sektorun payına düşür. Yaradılan şəraitin nəticəsidir ki, ərzaq təhlükəsizliyi tam təmin edilib, idxalın həcmi əhəmiyyətli dərəcədə azaldılıb, yeni iş yerləri açılıb. Vaxt vardı ki, Naxçıvan Muxtar Respublikasında 15 adda məhsul istehsal olunurdu. Bu gün 372 növdə məhsul istehsal olunur, 344 növdə məhsula olan tələbat tamamilə yerli imkanlar hesabına ödənilir. Hazırda muxtar respublikada avtomobil və tikinti materiallarından tutmuş, ərzaq və məişət əşyaları istehsalına qədər çoxsaylı sahibkarlıq müəssisələri fəaliyyət göstərir. Məşğul əhalinin 83 faizi özəl sektorda çalışır.

Qeyd olunmuşdur ki, sahibkarlarımız aqrar sahənin inkişafına da öz töhfələrini verirlər. Torpaq mülkiyyətçilərinin torpaq vergisi istisna olmaqla bütün növ vergilərdən azad edilməsi, bu sahədə çalışanlara bir sıra güzəştlərin tətbiq olunması, subsidiyaların verilməsi, ailə təsərrüfatlarının fəaliyyətinin dəstəklənməsi öz nəticəsini göstərmiş, məhsul bolluğu yaranmışdır. Bu gün xidmət sahəsində də sahibkarlıq fəaliyyəti mühüm rol oynayır. Xidmət sektorunun inkişafı öz növbəsində turizmin inkişafına təsir göstərmiş, müasir turizm sektorunun formalaşması hesabına isə muxtar respublikaya gələn turistlərin sayı artmışdır.

Şübhəsiz ki, davamlı maliyyə dəstəyi olmadan sahibkarlıq sahələri inkişaf edə bilməz. Muxtar respublikada kreditlər üzrə aşağı faiz dərəcələrinin tətbiq olunması hesabına sahibkarların fəaliyyət dairəsi genişlənmişdir. Sahibkarlığa Kömək Fondunun xətti ilə güzəştli şərtlərlə kreditlərin verilməsi də yeni fəaliyyətə başlayan sahibkarlıq müəssisələri üçün geniş imkanlar açmışdır. Muxtar respublikada idxaldan asılılığın aradan qaldırılması sahəsində görülən tədbirlər öz faydasını verməkdədir. Bu sahədə əhəmiyyətli addımlardan biri də ixracın təşviqi ilə bağlı qəbul olunmuş qərarlardır. Bunun nəticəsidir ki, ixracyönümlü məhsul istehsalı getdikcə artır. Hazırda Naxçıvan Muxtar Respublikasının dünyanın 50-dən çox ölkəsi ilə ticarət əlaqələri mövcuddur. İstehsal olunan müxtəlif adda məhsulların ixrac imkanlarının artması səbəbindən artıq 9 ildir ki, muxtar respublikanın xarici ticarətində müsbət saldo qeydə alınır.

Ali Məclisin Sədri diqqətə çatdırmışdır



ki, sahibkarlığın inkişafında yerli məhsulların istehsalı qədər onların satışının təşkili də mühüm əhəmiyyətə malikdir. Bu gün muxtar respublikada ən müasir tələblərə cavab verən iri ticarət mərkəzlərinin fəaliyyət göstərməsi, mövsüm ərzində yarmarkaların və festivalların təşkili, satış yerlərində yerli məhsullara üstünlük verilməsi məhsul istehsalçılarının marağını artırmışdır. Son dövrlərin təhlilləri göstərir ki, tarladan birbaşa satışa prinsipinin dəstəklənməsi ailə təsərrüfatlarının inkişafına və artmasına əhəmiyyətli təsir göstərmişdir. Bütövlükdə, sahibkarlığın inkişafının dəstəklənməsi muxtar respublikanın iqtisadi potensialını artırmışdır. Bunun nəticəsidir ki, Azərbaycan Respublikası Prezidentinin sədri olduğu “Caspian European Club”un 2017-ci il üçün hazırladığı investisiya reytinqində Naxçıvan Muxtar Respublikası ən yüksək ümumi bal toplayaraq birinci yerə çıxmışdır.

Ali Məclisin Sədri demişdir: Bu gün əsas məqsəd ondan ibarətdir ki, sahibkarlıq mühiti daha da genişlənsin. Daxili bazarda yerli məhsullar hesabına bolluq yaradılsın. Yeni iş yerləri açılsın, məşğulluq təmin edilsin. Muxtar respublikanın ixrac imkanları artsın. Bunun üçün İqtisadiyyat Nazirliyi bundan sonra da kiçik və orta sahibkarlığın, eləcə də ailə təsərrüfatlarının inkişafına diqqəti artırmalı, birinci növbədə bu sahələrin güzəştli kreditlərlə təminatı diqqətdə saxlanılmalıdır. Qardaş Türkiyə Respublikası məhsul ixracında muxtar respublikaya sərbəst ticarət imkanı vermişdir. Bununla bağlı İqtisadiyyat Nazirliyi Türkiyənin müvafiq idxal qurumları ilə əlaqələr yaradaraq onların muxtar respublikadakı iş adamları ilə görüşlərini təşkil etməli, yerli məhsulların ixracında qarşıya çıxan çətinliklərin aradan qaldırılması üçün tədbirlər görməlidir. Daxili bazarın qorunması da diqqətdə saxlanılmalıdır. Dövlət Gömrük Komitəsi sağlam rəqabət mühiti formalaşdırmaq məqsədilə idxal-ixrac əməliyyatlarının müxtəlif tarif metodlarından istifadə əsasında tənzimlənməsini bundan sonra da davam etdirməli, Vergilər Nazirliyi sahibkarlıq subyektlərində əsassız yoxlamalara yol verməməlidir.

Qeyd olunmuşdur ki, yerli məhsulların daxili və xarici bazarlarda rəqabətədavamlı olması üçün keyfiyyət standartlarına ciddi əməl edilməlidir. Sahibkarlar istehsal prosesində ən müasir texnologiyaların tətbiqinə və keyfiyyətli xammaldan istifadəyə xüsusi diqqət yetirməlidirlər. Yerli icra hakimiyyəti orqanları ailə təsərrüfatlarına dəstək olmalı, ailə təsərrüfatları isə istehsal etdikləri məhsulların növ və çeşidini artırmalı, məhsulların keyfiyyətinə və standartlara uyğun qablaşdırılmasına diqqət yetirməlidirlər.

Ali Məclisin Sədri muxtar respublikanın inkişafında sahibkarların əməyinin, çəkdikləri zəhmətin təqdirəlayiq olduğunu bildirmiş, buna görə sahibkarlara bir daha təşəkkür etmiş, çıxışını ölkə Prezidenti cənab İlham Əliyevin fikirləri ilə tamamlamışdır: ***“Sahibkarların uğurlu işi bizim hamımızın uğurudur. Azərbaycanın inkişafı bu istiqamətdədir, bu yoldadır”.***

Sonra Ali Məclisin Sədri yeni istehsal və xidmət sahələrinin yaradılması üçün 11 sahibkara güzəştli kreditlərin çeklərini təqdim etmişdir. Bu kreditlər plastik boru, profil və aksesuarları, heyvandarlıq məhsulları, arıçılıq məhsulları istehsalı və meyvə-tərəvəz məhsullarının konservləşdirilməsi sahələrinin yaradılmasına, eləcə də istixana təsərrüfatının fəaliyyətinin genişləndirilməsinə sərf olunacaqdır.

Tədbirdə 2017-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafından bəhs edən film nümayiş olunmuşdur.

Ali Məclisin Sədri Naxçıvan Biznes Mərkəzinin sərgi salonunda muxtar respublikada istehsal olunan məhsullardan ibarət sərgiyə baxmışdır.

Qeyd olunmuşdur ki, sərgi salonunda 94 müəssisənin 192 növdə və 1258 çeşiddə məhsulu, 37 ailə təsərrüfatında istehsal olunan 17 növdə 112 çeşiddə məhsul, 30 sənətkar tərəfindən hazırlanan 254 əl işi, rəsm əsərləri, xalçalar və Naxçıvan Muxtar Respublikasının istehsal müəssisələrinin xəritəsi nümayiş olunur. Muxtar respublikada istehsal olunan məhsulların çeşidinin və keyfiyyətinin artması onların xarici bazarlara çıxış imkanlarını xeyli genişləndirir. Bildirilmişdir ki, Naxçıvan Avtomobil Zavodunda 14 modeldə avtomobil istehsal olunur. Hazırda zavodun Naxçıvan şəhərində, Şərur və Culfa rayonlarında ehtiyat hissələrinin satışı mağazaları fəaliyyət göstərir. Bu il isə Şərur və Culfa rayonlarında texniki xidmət sahələri yaradılacaqdır.

Ali Məclisin Sədri yerli məhsulların istehsal prosesinin təkmilləşdirilməsi və keyfiyyətinin yüksəldilməsi, Naxçıvan məhsullarının xarici bazarlara çıxışı imkanlarının və ixrac potensialının artırılması, məhsulların qablaşdırılmasına və tara istehsalı sahələrinin yaradılmasına diqqət yetirilməsi, sahibkarlar arasında qarşılıqlı əlaqələrin gücləndirilməsi, Naxçıvan Avtomobil Zavodunun istehsalı olan “NAZ-Lifan-5028” modelinin əsasında təcili tibbi yardım avtomobillərinin yığılması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin mətbuat xidməti**

# Azərbaycan-İran əlaqələri dostluq və qardaşlığa əsaslanır

1979-cu il fevralın 11-də İran İslam Respublikası yaranmışdır. Həmin tarixdən başlayaraq hər il fevralın 11-i İran İslam Respublikasında Milli Bayram – İslam İnqilabı Günü kimi qeyd olunur.

Ötən əsrin 90-cı illərində ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi İran İslam Respublikasına səfərləri Azərbaycanla İran arasındakı münasibətlərin əsasını qoymuşdur. ***“Azərbaycanın və İranın tarixi keçmişi, ölkələrimizin coğrafi vəziyyəti, dövlətlərimizin bugünkü siyasəti bizi bundan sonra da daha sıx əməkdaşlığa dəvət edir”***, – deyən ulu öndər ali hakimiyyətə qayıdışından sonra da Azərbaycan-İran əlaqələrinin inkişafını diqqətdə saxlamış, dövlətlərarası münasibətlərimiz yeni mərhələyə yüksəlmişdir. Azərbaycan Respublikası və İran İslam Respublikası arasında imzalanan sənədlər, münasibətlərimizin daha da genişləndirilməsi istiqamətində atılan addımlar siyasi, iqtisadi və mədəni sahədə əlaqələrin dərinləşməsi üçün yeni imkanlar açmışdır.

Bu gün Azərbaycan-İran əlaqələri xalqlarımızın mənafeyinə uyğun olaraq inkişaf edir. Ölkə Prezidenti cənab İlham Əliyevin İran İslam Respublikasına rəsmi səfərləri, əldə



olunan razılaşmalar, həyata keçirilən birgə layihələr ikitərəfli əlaqələri daha da dərinləşdirmişdir. Bütün bunlar isə Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın yaxın vilayətləri arasında əlaqələrin uğurlu inkişafını şərtləndirən əsas amillərdir. Naxçıvan Muxtar Respublikasının Culfa Gömrük İdarəsinin və Şahtaxtı Gömrük İdarəsinin sərhəd-keçid kompleksinin müasir tələblər səviyyəsində tikilib istifadəyə verilməsi, beynəlxalq standartlara cavab verən avadanlıqlarla təchiz olunması və iş saatının artırılması, həmçinin muxtar respublikamıza səfər edən İran vətəndaşlarına sadələşdirilmiş qaydada viza olmayan birdəfəlik giriş icazələrinin verilməsi gediş-gəlişin artmasına, ticarət-iqtisadi əlaqələrin ilbəil genişlənməsinə səbəb olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Xalqlarımızı qədim tarix və ortaq dəyərlər birləşdirir. Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan-İran əlaqələrinin müştərək dəyərlər əsasında inkişafına çalışırdı. Dahi şəxsiyyətin əsasını qoyduğu dostluq və qonşuluq münasibətləri bu gün xalqlarımızın iradəsinə uyğun olaraq davam və inkişaf etdirilir, qarşılıqlı əməkdaşlıq genişlənir. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın yaxın vilayətləri arasında yaranmış əməkdaşlıq münasibətləri Azərbaycan-İran əlaqələrinin genişlənməsində mühüm əhəmiyyətə malikdir. Mövcud imkanlardan səmərəli istifadə əlaqələrimizin inkişafı üçün möhkəm zəmin yaradıb. Gömrük-keçid məntəqələrinin fəaliyyəti, iqtisadi-ticarət, energetika, turizm, təhsil, səhiyyə, idman, kənd təsərrüfatı və nəqliyyat sahəsindəki əlaqələrin dinamikası məmnunluq doğurur”.***

*Ardı 3-cü səhifədə*

2017-ci il əlaqələrin inkişafı baxımından məhsuldar olmuşdur. Belə ki, ötən il yanvarın 24-də İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətinin valisi Qurbanəli Səadətin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasında olmuş və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ilə görüş keçirilmişdir. İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayətinin tibb mütəxəssislərindən ibarət nümayəndə heyəti də Naxçıvan Muxtar Respublikasına səfər etmiş, səfər zamanı dərman preparatlarının birgə paketlənməsi və laboratoriya ləvazimatlarının istehsalı sahəsində əməkdaşlığa dair müzakirələr aparılmışdır. 2017-ci il martın 5-12-də isə İranın Qərbi Azərbaycan Vilayəti sahibkarlarının Naxçıvan şəhərində ikinci sərgi-satışı təşkil olunmuş, iyulun 3-də İran İslam Respublikasının Urmiya şəhərində İran və Azərbaycanın gömrük xidməti nümayəndələrinin üçüncü müştərək görüşü keçirilmişdir. Görüşdə qarşılıqlı şəkildə gömrük keçidlərinin daha da sadələşdirilməsi, ticarət və tranzit əməliyyatlarının artırılması istiqamətində müzakirələr aparılmış, Şahtaxtı-Poldəşt sərhəd-keçid məntəqəsinin iş vaxtının 12 saatdan 16 saata çatdırılması və bir sıra digər mühüm məsələlərlə bağlı razılıq əldə olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun İranın xarici işlər naziri Məhəmməd Cavad Zərifin dəvətinə əsasən dekabrın 17-18-də İran İslam Respublikasında rəsmi səfərdə olması əlaqələrimizin inkişafı baxımından mühüm əhəmiyyətə malik olmuşdur. İki günlük səfər çərçivəsində Ali Məclisin Sədri İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərif, İslami Şura Məclisinin sədri Əli Laricani, İran-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun həmsədri Salman Xodadadi, İran İslam Respublikasının iqtisadi işlər və maliyyə naziri, hökumətlərarası komissiyanın həmsədri Məsud Kərbasian, İranın "Fərab" şirkətinin rəhbəri və nümayəndələri ilə görüşmüşdür. Keçirilən görüşlər zamanı Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası ilə İran və onun yaxın vilayətləri arasında əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyəti vurğulanmış, qarşılıqlı fikir mübadiləsi aparılmışdır.

Bu gün ölkələrimiz arasındakı münasibətlər davamlı inkişaf mərhələsinə, strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Münasibətlərimiz bu gün ən yüksək səviyyədədir. Biz qonşuyuq, dostuq, qardaşıq. İran ilə Azərbaycan arasındakı münasibətlər nəinki iki ölkə arasındakı münasibətlər kimi formalaşıbdır, eyni zamanda, münasibətlərimizin bölgədə gedən proseslərə mühüm təsiri vardır".***

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Tarixi abidələrin bərpası ötən il də diqqət mərkəzində saxlanılıb

***Naxçıvan tarixi abidələrlə zəngin bir diyardır. Ulu babalarımızın yadigarı olan bu abidələr bizə keçmişimizdən xəbər verir, məxsus olduğu dövrün mədəni mühitini, xalqımızın sənətkarlıq xüsusiyyətlərini, təfəkkür və düşüncə tərzini özündə yaşadır. Buna görə də tarixi abidələrin mühafizəsi və tədqiqi maddi-mənəvi irsimizin qorunub gələcək nəsillərə çatdırılması baxımından böyük əhəmiyyət daşıyır.***





Ölkəmizdə tarixi abidələrə qayğının dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilməsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. ***"Tarix və mədəniyyət abidələri xalqın milli sərvətidir. Dövlət tarix və mədəniyyət abidələrinin qorunmasına təminat verir, onların elmi tədqiqi üçün zəruri qanunların yaradılmasını, fəaliyyətini və inkişafını təmin edir, abidələrdən səmərəli istifadə üçün şərait yaradır"***, – deyən ulu öndərin rəhbərliyi ilə bu sahədə dövlət siyasətini həyata keçirmək üçün zəngin qanunvericilik bazası yaradılıb. Məhz bu bazanın əsasında yaşı yüz illərlə ölçülən tarixi-mədəni tikililərimizin bərpası, qorunması və gələcək nəsillərə çatdırılması istiqamətində mühüm işlər görülür. Əvvəlki illərdə olduğu kimi, 2017-ci ildə də muxtar respublikamızın müxtəlif bölgələrində tarixi abidələrin bərpası və əsaslı təmiri diqqət mərkəzində saxlanılıb.

Qeyd edək ki, Naxçıvan ərazisindəki tarixi abidələri ümumi ortaq dəyər birləşdirir: türk və islam bağlılığı. Bu iki amil onun göstəricisidir ki, Naxçıvan tarixən qədim türk-oğuz yurdu olmaqla yanaşı, həm də İslam dininin yaranmasından sonra bu dinin inkişaf etdiyi mühüm mərkəzlərdən olub. Bunun nəticəsidir ki, hazırda qədim diyarda türk-islam mədəniyyətinin vəhdətini təşkil edən çoxsaylı abidələr vardır. Muxtar respublikada həmin tarixi abidələrə göstərilən dövlət qayğısı ötən il də davam etdirilib.

Bu mənada, 2017-ci ildə mühüm quruculuq tədbirləri aparılan obyektlərdən biri Kəngərli rayonunun Qarabağlar kəndində yerləşən Qarabağlar Türbə Kompleksidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2016-cı il iyulun 4-də "Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında" Sərəncam imzalayıb və bununla bağlı tədqiqat qrupu yaradılıb. Sərəncama uyğun olaraq 2016-cı ildən kompleksdə bərpa işlərinə başlanılıb və quruculuq tədbirləri elmi əsaslarla aparılır. Qeyd edək ki, kompleks türbə, xanəgah və qoşaminarəli baştağdan ibarətdir. Bərpa işləri aparılarkən abidənin tarixi görkəmi olduğu kimi qorunub saxlanılıb. Ötən müddətdə türbənin kürsülük hissəsi və kaşılı örtükləri, eləcə də türbənin səthindəki həndəsi ornamentləri xatırladan kitabələr, qoşaminarəli baştağı və xanəgahı bərpa olunub, türbə və qoşa minarə arasındakı sahədə muzey yaradılıb. Bundan əlavə, kompleksin yerləşdiyi ərazidə torpaq işləri görülüb, ətrafa istinad divarı çəkilib, abidənin yerləşdiyi əraziyə gedən yol genişləndirilib.

Muxtar respublika ərazisində diqqətçəkən tarixi-dini abidələr içərisində imamzadə komplekslərinin öz yeri var. Məlumat üçün bildirək ki, ölkəmizin digər bölgələrində olduğu kimi, Naxçıvanda da imamzadə komplekslərinin tikilməsi Səfəvilər dövrü üçün xarakterikdir. Belə komplekslərin səciyyəvi xüsusiyyətləri əvvəllər mövcud olmuş dəfn tikililərinin təmir-bərpa və yenidənqurma yolu ilə abadlaşdırılmasından və bərpa edilmiş məqbərəyə bitişik məscid, təkyə və digər xidməti otaqların tikilməsi yolu ilə dini kompleksin yaranmasından ibarət olub. Səfəvilər dövründə formalaşdığına görə imamzadə kompleksləri, əsasən, bu dövlətin əhatə etdiyi torpaqlarda dəfn edilmiş imamlar və onların övladları üçün tikilib. Bu gün tarixi və dini dəyərlərə göstərilən qayğı muxtar respublikamızda mövcud olan imamzadə komplekslərini də əhatə edib. Belə ki, 2017-ci ildə Naxçıvan şəhərindəki "İmamzadə" Kompleksinə daxil olan "İmamzadə" türbəsində təmir-bərpa işləri aparılıb. İlkin mərhələdə bərpaçılar tərəfindən türbənin fasad və daxili hissəsində divarlar köhnə üzlük boya və materiallardan təmizlənib, tarixi tikilinin aşağı hissəsinin rütubətdən qorunması üçün betonlama işləri həyata keçirilib. Bundan başqa, türbənin arxa hissəsindəki torpaq qatı götürülüb, istinad divarları yaradılıb, yağış sularının buraya zərər verməməsi üçün sistemlər quraşdırılıb. Təmir-bərpa işləri başa çatdırıldıqdan sonra "İmamzadə" Kompleksinin ərazisi şəhərimizin İslam mədəniyyətinə aid ən görməli yerlərindən birinə çevriləcək.

Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən digər böyük imamzadələrdən biri də Babək rayonunun Nehrəm kəndindədir. Aparılan elmi araşdırmalara görə, bu imamzadə də Naxçıvan imamzadəsi ilə bir dövrdə inşa edilmişdir. Kənddəki qəbiristanlığın mərkəzində yerləşən bu imamzadə türbə, məscid, təkyə və başqa yardımçı binalardan ibarət böyük bir kompleksdir. Burada kompleksin əsasını eni 8, uzunluğu 9,5, hündürlüyü 4,5 metr olan türbə və hündürlüyü 6 metr olan günbəz təşkil edir. Onun içərisində bir qəbir vardır. Bu qəbrin üzərində heç bir kitabə olmadığı üçün onun kimə məxsusluğu dəqiq müəyyən edilməmişdir. Yalnız kənd əhalisinin dediklərindən belə məlum olur ki, bu məzar yeddinci imam Museyi-Kazımın oğlu Seyyid Əqilə məxsusdur.

Naxçıvan əhalisinin ən çox ziyarət etdiyi bu kompleksdə də ötən ilin may ayından yenidənqurma işləri aparılır. Türbə, təkyə və yardımçı binalardan ibarət olan kompleksin ətrafında yaşıllıqlar salınacaq, işıqlandırma sistemləri qoyulacaq.

İşlər yekunlaşdıqdan sonra həm ziyarətgah, həm də bu türbə tarixi abidə kimi Naxçıvana gələn yerli və xarici turistlərin ən çox üz tutacaqları məkanlar sırasında olacaq.

Muxtar respublikamızda yenidən qurulan və ya təmir-bərpa işləri aparılan memarlıq abidələri sırasında tarixi hamamlara da xeyli pay düşüb. Ötən il Şərur rayonunun Yengicə kəndindəki tarixi hamam binası bərpa işlərinə cəlb olunub. Məlumat üçün bildirək ki, XVIII əsrə aid edilən Yengicə hamamı Şərq memarlığı üslubunda inşa edilib. Bu hamamın binası əhəng məhlulu istifadə olunmaqla kərpicdən tikilib. Təbii səbəblər nəticəsində dağıntılara məruz qalsa da, dövrümüzədək qismən salamat vəziyyətdə gəlib çatıb. Burada quruculuq tədbirləri tikilinin ilkin quruluşu nəzərə alınmaqla aparılır. Ötən müddətdə hamamın fasad hissəsi qırmızı kərpicdən istifadə olunmaqla üzlənib. Daxildəki hamam otaqlarında isə bərpa işləri davam etdirilir. İşlər yekunlaşdıqdan sonra tikilinin ətrafı abadlaşdırılacaq, turistlərin ziyarəti üçün lazımi şərait yaradılacaq.

Tarixi abidələrin bərpası, onların əsaslı şəkildə yenidən qurulması həm ağır zəhmət, həm də ciddi vəsait tələb edir. Şübhəsiz, tariximizi, maddi-mədəni mirasımızı qoruyub yaşatmaq, onları gələcək nəsillərə çatdırmaq üçün dövlətimiz bütün tədbirləri görür. Bu gün xalqımızın rahat yaşayışı üçün qurulub-yaradılan sosial-mədəni və infrastruktur obyektlərinin tikintisi üçün çəkilən xərclər qədər tarixi abidələrimizin bərpası üçün sərf olunan əmək də dəyərlidir. Bu baxımdan muxtar respublikada tarixi abidələrə göstərilən qayğı, ümumilikdə, tarixə və dəyərlərimizə göstərilən həssaslığın, onlara verilən böyük qiymətin ifadəsidir.

**Səbuhi HƏSƏNOV**

***Gənc nəslin hərbi xidmətə mənəvi-psixoloji cəhətdən hazır olması və vətənpərvər ruhlu vətəndaş kimi formalaşması işi ümumtəhsil məktəblərinin üzərinə düşür. Ona görə də muxtar respublikada fəaliyyət göstərən təhsil ocaqlarında gənclərin vətənpərvər ruhda təhsil almaları və onların gələcəkdə Vətənin keşiyində ayıq-sayıq dayanmaları üçün lazımi tədbirlər görülür. Bu mənada, təhsil ocaqlarında keçilən gənclərin çağırışaqədərki hazırlığı fənni mühüm önəm daşıyır.***

## Gənclərin vətənpərvərlik tərbiyəsinə ciddi önəm verilir



Azərbaycan dövləti müstəqillik əldə etdikdən sonra sözügedən fənnin tədrisinin vacibliyi, xüsusilə ön plana çəkilib. Bu gün məktəblərin əksəriyyətində ehtiyatda olan zabitlərin bu fənni tədris etməsi keyfiyyət amilinə müsbət təsir edir. Bu dərslərin tədrisi vəziyyətini öyrənmək üçün Naxçıvan şəhərində fəaliyyət göstərən bir neçə tam orta məktəbdə olduq, təhsil müəssisələrinin hərbi rəhbərləri ilə söhbət etdik.

Üz tutduğumuz ilk ünvan Naxçıvan şəhər 2 nömrəli tam orta məktəb oldu. Təhsil müəssisəsinin hərbi rəhbəri Novruz Novruzov dedi ki, Vətən keşiyində dayanmaq hər birimizin vətəndaşlıq borcudur. Hərbi xidmət keçəcək gənc hələ məktəb yaşlarından bu xidmətə hazırlanır. Bu baxımdan gənclərin çağırışaqədərki hazırlığı fənninin tədrisi xüsusi olaraq diqqət mərkəzində saxlanılır. Həmin dərslərdə uşaqlara Vətənin müdafiəsinin əsasları, taktiki hazırlıq, atəş hazırlığı, hərbi nizamnamələr, sıra təlimi, mülki müdafiə, hərbi-tibbi hazırlıq və digər biliklər öyrədilir.

Novruz Novruzovun dediyinə görə, gənclərin çağırışaqədərki hazırlığı fənninin yuxarı siniflər üçün tədris olunması təsadüfi deyildir. Çünki uşaqlar bu yaşda daha çox həyati hadisələrə münasibət göstərir, Vətən, xalq haqqında düşünürlər.

Hərbi rəhbər onu da dedi ki, il ərzində şagirdlər müxtəlif hərbi hissələrdə olurlar. Bu da onların hərbi texnika və sursatları yaxından tanımalarına, hərbi biliklərə daha dərindən yiyələnmələrinə imkan verir. Bundan əlavə, tədris ilində təşkil olunan müxtəlif hərbi-idman oyunlarında şagirdlərin iştirakı təmin edilir. Təqdirəlayiq haldır ki, ötən tədris ilində keçirilən "Şahin" və "Sərhəd" hərbi-idman oyunlarında Naxçıvan şəhər 2 nömrəli tam orta məktəb muxtar respublika məktəbləri arasında qalib olub.

Naxçıvan şəhərindəki 11 nömrəli tam orta məktəbdə də olduq. Burada tədris prosesini izlədik. Müəllim hərbi kabinədəki əyani vəsaitlərlə "Mühəndis maneələri" mövzusunu şagirdlərə izah edir, qarşıya çıxan maneələrdən qorunma yollarını başa salır, uşaqlar elektron lövhə vasitəsilə hərbi yenilikləri əks etdirən videoslayda baxırdılar. Ötən il oktyabrın 18-də – Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günündə Naxçıvan Muxtar Respublikasında ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümü münasibətilə keçirilən hərbi paradın videoçarxının nümayişi şagirdlərin böyük marağına səbəb oldu. Dərsdən sonra hərbi rəhbər Emil Qurbanov dedi ki, xalqına, Vətəninə, tarixinə və adət-ənənələrinə sonsuz məhəbbət hissi bəsləmək, hər an Vətənin müdafiəsinə hazır olmaq gənc nəslin yüksək mənəvi keyfiyyətləri hesab olunur. Gənclərin çağırışaqədərki hazırlığı fənninin tədrisi olunmasında da məqsəd bu keyfiyyətlərin formalaşdırılması və düzgün istiqamətləndirilməsidir.

Naxçıvan şəhərindəki 12 nömrəli tam orta məktəbdə də adıçəkilən fənn müasir təlim üsulları ilə tədris olunur. Məktəbin hərbi rəhbəri Əli Rzayevin sözlərinə görə, bu fənn məktəblilərin hərbi həyatla tanış olmalarına, ordumuz haqqında məlumatların, hərbi nizamnamə qaydalarının mənimsədilməsinə, habelə ilkin tibbi yardım, mülki müdafiə bacarıqlarının aşılanmasına xidmət edir. Orduda qulluq edən zabitlərin vaxtaşırı məktəbə gəlib gənclərlə görüşməsi müsbət nəticələr verir. Həmçinin ildə iki dəfə təhsil müəssisələrinin hərbi rəhbərləri üçün hərbi hissələrdə təlim təşkil edilir. Həmin təlimlərdə iştirak edən müəllimlər hərbin yenilikləri ilə tanış olur, müasir texnikaların sirlərini öyrənirlər. Hazırda tədris olunan dərsliklərdə müasir silahlar, raketlər, Azərbaycan Ordusunda istifadə olunan bəzi silah və texnikalar barədə məlumatlar yer alıb. Ümumilikdə, məktəbdə olan əyani vəsaitlər şagirdlərin hərbi xidmətə ilkin hazırlığı üçün əhəmiyyətli bazadır.

Naxçıvan şəhərindəki 15 nömrəli tam orta məktəbdə də Vətənə layiqli gənclər yetişdirilir. Burada digər təhsil müəssisələrindən fərqlənən bir məqam diqqətimizdən yayınmadı. Bu, məktəbin hərbi kabinəsində Azərbaycanın Milli Qəhrəmanı, şəhid Mirəsgər Seyidovun büstünün olması idi. Xatırladaq ki, məktəb həmin şəhidin adını daşıyır. Təhsil ocağının hərbi rəhbəri Nüsrəddin Axundov dedi ki, bu amil həm də məktəbin şagirdlərində vətənpərvərlik hisslərini gücləndirir. Keçilən dərslərdə oğlanlarla yanaşı, qızlar da fəal iştirak edirlər. Onlar avtomat silahını normativdən daha tez sökük yığırlar. Məktəblilər arasında hərbi-vətənpərvərlik hissini artıran səbəblərdən biri də hər il keçirilən hərbi-idman oyunlarıdır. Məktəbin yuxarı sinif şagirdləri həmin oyunlara gənclərin çağırışaqədərki hazırlığı dərslərində hazırlaşırlar. Çəkilən zəhmət hədər getmir. Bunun nəticəsidir ki, hər il ümumtəhsil məktəbləri arasında keçirilən "Şahin" və "Sərhəd" hərbi-idman oyunlarında Naxçıvan şəhər 15 nömrəli tam orta məktəb də ön yerlərdən birini tutur.

Təhsil müəssisələrində apardığımız müşahidələr belə deməyə əsas verir ki, bu gün muxtar respublikanın məktəblərində vətənpərvər ruhlu gənclər yetişdirilir. Bu da doğma Vətənimizin işğal altında olan torpaqlarının tezliklə azad olacağına əminlik yaradır.

**Nail ƏSGƏROV**

***AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fondu milli sərvətlərimiz olan əlyazmalarımızın toplanması, onların xalqımıza və gələcək nəsillərə çatdırılması istiqamətində fəaliyyətini davam etdirərək yeni tapıntıların əldə olunmasına çalışır.***

## Ordubadlı müəllifin nadir əlyazması tapılıb





Yaxın günlərdə fondun əməkdaşı, Əlyazmaların toplanması şöbəsinin müdiri Fəxrəddin Eylazov araşdırmalar zamanı yeni əlyazma nümunəsi aşkarlayıb. Tədqiqat zamanı bu əlyazmanın 1860-cı ildə (hicri-qəməri 1281-ci il) yazıldığı məlum olub.

Fəxrəddin Eylazovun sözlərinə görə, əsərin müəllifi əslən Ordubad şəhərindən olan Məhəmməd Həsən Ordubadidir. Əsərin sonunda göstərilən tarixə əsasən Məhəmməd Həsən Ordubadinin XIX əsrin birinci yarısında, təqribən, 1810-1860-cı illərdə yaşayıb fəaliyyət göstərdiyini təxmin etmək olar. Alim, maarifpərvər ziyalı kimi Məhəmməd Həsən Ordubadi Şərq dillərini öyrənib və bir sıra elm sahibləri ilə fikir mübadiləsi edib. Müəllifin ərəb dilində, 73 səhifədən ibarət olan bu əsəri əlyazma şəklində dövrümüzə gəlib çatıb. Əlyazmanın əvvəlindən və sonundan bir hissənin düşməsi səbəbindən əsərin adını müəyyən etmək mümkün deyil. Bununla belə, astronomiyadan bəhs edən bu əsər bütün dövrlər üçün əhəmiyyətlidir. Əlyazmanın müqəddiməsindəki açıqlamadan məlum olur ki, həmin dövrdə Ordubad şəhərində "Əl-Həqiqət" adlı məşhur elm mərkəzi olub. Həmin mərkəz bir neçə istiqamətdə elmi tədqiqatlarla yanaşı, həm də onun təlim və tədrisini həyata keçirib. Məhəmməd Həsən Ordubadi bu mərkəzin aparıcı simalarından biri kimi fəaliyyət göstərib. Əsər mövzu baxımından dəqiq və humanitar elmləri əhatə edərək astronomiya, həndəsi fiqurların fəza nəzəriyyəsi, riyaziyyat və coğrafiyanın müxtəlif sahələrinə aiddir.

"Müəllif müqəddimədə özündən əvvəl yaşamış və müasirləri olmuş bir neçə alimin adını çəkib. Ömər Xəyyam, Sufi Əbdulrəhman, Bəhmənyar, Əbu Əli İbn Sina, Ptolomey və onların nəzəriyyələrinin qarşılıqlı təhlilindən bəhs edib, həmçinin özünün bu nəzəriyyələrə münasibətini bildirməklə obyektiv nəticə çıxarmağa çalışıb", – deyən Fəxrəddin Eylazov onu da diqqətimizə çatdırdı ki, əsər iki əsas bölmədən ibarətdir. Hər bölmənin müqəddiməsində nədən bəhs edildiyi və neçə fəsildən ibarət olduğu açıqlanıb.

Birinci bölmə kainatın quruluşu, göy cisimlərinin daxili və müstəvi hərəkətləri, ulduzların hərəkət dairələri və bu hərəkətlərin mərhələləri haqqındadır. Bölmə beş fəsildən ibarətdir: Kainatın göy cisimləri və onların sayı, ulduzlar, onların hərəkət hüdudları, rəsədxana tədqiqatları, Ptolomey cədvəlində təqribi və görünən 1520 ulduzun 300-nün Ptolomey tərəfindən kəşfi və adlandırılması, Əbdulrəhman Sufinin Ptolomey cədvəlini qəbul etməsi, 1250 ulduzun tədqiqat nəticələri, məlumatlar əks olunub.

Eyni zamanda göy cisimlərinin hərəkət qanunları, ulduz bürcləri, göy cisimlərinin hərəkət istiqaməti və sürətlərindən də bəhs olunur.

Burada göy cisimlərinin fəzada hərəkət trayektoriyaları, bu trayektoriyalar haqqında fərziyyələr və hərəkət trayektoriyalarındakı bəzi nöqtələrdə yubanmalar, onun səbəbləri, bir nöqtə ilə digəri arasındakı əlaqələrin xarakteri, hərəkət dairəsinin qövs bucağı və dairə sektorunun hesablanması, mərkəzləşmə qanunu haqqında yazılar da maraq doğurur.

Yeddi ulduz və onların peyklərinin hərəkətləri, ulduzların qarşılıqlı münasibətləri, onların hərəkət istiqamətləri, Günəş sistemindəki qarşılıqlı əlaqələri, Günəş sisteminin daxili hərəkətləri, Günəş və Ay tutulması, Ayın səhifələri, Ayın birinci işıqlanma dərəcəsi ilə ikinci işıqlanma dərəcəsi arasında müqayisəli təhlil, planetlərin fırlanma mərkəzinin təyin olunması və onların arasındakı əlaqənin elmi sübutu kimi maraqlı faktlara rast gəlinir.

İkinci bölmə Yer kürəsi və ona aid olan tədqiqatlar haqqındadır. Üç fəsildən ibarət olan bölmədə Yer kürəsinin ölçüləri, yeddi iqlim və onun xassələri, hüdudları, başlanğıc və son nöqtələri barədə danışılır.

Həmçinin Yer kürəsinin ölçülərinin, iqlim qurşaqlarının təyin olunması, onların başlanğıc, orta və son sərhədlərinin müəyyən olunması, ekvator xəttinin uzunluğu, xüsusiyyəti, başlanğıc və son nöqtəsi, birinci yarımkürə ilə ikinci yarımkürə arasındakı oxşarlıq və fərqli cəhətlər, gecə-gündüz dəyişkənliyi ilə bağlı ilkin elmi təsəvvürlər də burada yer alıb.

Həmin bölmədə Günəşin batma və çıxma bucağı, kölgənin əmələgəlməsi, günorta vaxtının təyin olunması, gecə və gündüzün başlama saatının dəqiqləşdirilməsi, sübh zamanı və Günəş şəfəqinin görünmə saatlarının təyin olunması haqqında məlumatlar da astronomiya elmi sahəsində çalışan mütəxəssislərin marağına səbəb olacaqdır.

Giriş hissəsində açıqlanan başlıqlardan da məlum olur ki, əsərdə istər o dövr, istərsə də bu gün üçün bir sıra aktual mövzulardan danışılır. Əsərin geniş tədqiqi doğma Naxçıvanımızın elm beşiyi olduğunu bir daha təsdiqləməklə bir çox elmi faktların aşkarlanmasına şərait yaradacaq.

✍ **Ramiyyə ƏKBƏROVA**

## Muxtar respublikanın yaradılmasının 94-cü ildönümünə həsr olunmuş konsert olub

*Fevralın 9-da Culfa Rayon Mədəniyyət Evində Naxçıvan Dövlət Filarmoniyasının Estrada Orkestrinin Naxçıvan Muxtar Respublikasının yaradılmasının 94-cü ildönümünə həsr olunmuş konserti təşkil edilib.*

Kollektivin tanınmış solistlərindən Azərbaycan Respublikasının Əməkdar artistləri Tural Nəcəfov, Gülyanaq Fərzəliyeva, Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Yaşar Qurbanov, Elçin Nağıyev, Qəribə Həsənova, Azər Cəfərli, gənc müğənni İlkin Abdullayevin ifa etdikləri estrada mahnıları tamaşaçılarda xoş ovqat yaradıb. Onların ifasında səslənən Tofiq Quliyevin "Badamlı", "Zibeydə", Nəriman Məmmədovun "Naxçıvanım", Emin Sabitoğlunun "Ötən günlərim", Nəriman Əzimovun "Mənə dəniz verin", Vasif Adıgözəlovun "Mahnı", Elza İbrahimovanın "Sən yadıma düşəndə" və vətənpərvərlik ruhlu "Vətən", "Gənclik nəğməsi", "And içirik" mahnıları konsertə gələnlər tərəfindən alqışlarla qarşılanıb.

Konsertdə estrada mahnıları ilə bərabər, Azərbaycan bəstəkarlarından Eldar Mansurovun, dünya musiqisinin görkəmli sənətkarlarının marş, vals, caz, rəqs musiqi janrlarında yazdıqları melodiyalar da səsləndirilib.

Konsert Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Elçin Nağıyevin ifasında Səməd Əsgərovun "Ulu yurdum" mahnısı ilə başa çatıb.

**Ə.RZAYEV**

## Ahıllar evinin sakinlərinə tibbi xidmətin göstərilməsi davam etdirilir

Muxtar respublikada ahılların sosial müdafiəsinin gücləndirilməsi, cəmiyyətə inteqrasiyası, habelə sağlamlıqlarının qorunması daim diqqət mərkəzində saxlanılır və bu istiqamətdə davamlı tədbirlər görülür. Eyni zamanda onlara tibbi və sosial reabilitasiya xidmətləri də göstərilir.

Tənha ahıllara göstərilən dövlət qayğısının ifadəsidir ki, Şahbuz şəhərindəki Ahıllar evində onların rahat yaşaması üçün hər cür şərait yaradılıb. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində fəaliyyət göstərən Naxçıvan Tibbi-Sosial Ekspert Komissiyasının həkimləri mütəmadi olaraq Ahıllar evinə gələrək buranın sakinlərini müayinədən keçirirlər. Komissiyanın ixtisaslı həkimləri növbəti tibbi xidmət göstərmək məqsədilə Ahıllar evində olublar. Həkimlər sakinləri tibbi yoxlamadan keçirib, onlara tibbi məsləhətlər veriblər. Ahıllar göstərilən qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual: Əkin yerinin yandırılması hər hansı bir məsuliyyətə səbəb ola bilərmi?***

***Cavab:*** Bəli, bununla bağlı Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində 15 dekabr 2017-ci il tarixli Qanunla dəyişikliklər edilmişdir. Həmin dəyişikliklər 2018-ci il fevralın 1-dən qüvvəyə minir.

Belə ki, İnzibati Xətalar Məcəlləsinin 244-1-ci maddəsinə əsasən əkin yerinin yandırılmasına görə fiziki şəxslər 400 manatdan 600 manatadək məbləğdə, vəzifəli şəxslər 1500 manatdan 2000 manatadək məbləğdə, hüquqi şəxslər isə 5000 manatdan 6000 manatadək məbləğdə cərimə edilirlər. Qeyd olunan maddədə nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və ya Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi baxır.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi***

***Xalqımızın milli-mənəvi dəyərlərini zənginləşdirmək, formalaşdırmaq, qoruyub yaşatmaq hər birimizin müqəddəs borcudur. Əsrlər boyu cilalanmış, zamanın keşməkeşli sınaqlarından keçmiş, mədəniyyətimizi, birliyimizi, tarixi zənginliyimizi ucaldan milli dəyərlərimiz, xalqımızın yüksək əxlaqi xüsusiyyətlərinin təcəssümüdür. Uzun illərdən bəri nəsildən-nəslə ötürülən Vətən, ata-ana, el-oba, doğma ocaq sevgisi, xalqımızın mənlik şüuru, əxlaqi dəyərlərə sədaqəti, vətənpərvərlik hissinin ülviliyi, etik dəyərlər milli mentalitetimizin bariz nümunələridir.***

*Etnoqrafiyamız*

## Təndir çörəyinin ətri

Hələ illər öncəydi. Nənəmgilin həyətində "təndirəsər" dedikləri bir tikili vardı. İçində isə nənəmin düzəltdiyi iki təndir... Biri balaca, o biri böyük... Məni sevindirmək üçün həmişə balaca təndiri göstərib: "Bax, bu balaca təndiri səninçün düzəltmişəm, bir az da böyü, xəmir edəcəm, sənə təndirdə çörək bişirməyi öyrədəcəm", – deyərdi.

Nənəm sadə bir kənd qadını idi. Təndir düzəltməyi də sevirdi, təndirdə çörək bişirməyi də. O, təndir düzəltməyi öz anasından öyrənmişdi. Bu, onlarda nəsildən-nəslə keçən və yaşadılan bir peşə idi. Kənddə kimsə həyətinə təndir qoymaq istədikdə nənəmi köməyə çağırardı. Nənəm isə bu işi sevə-sevə yerinə yetirərdi.

Təndir qurmaq üçün ona xüsusi gil və çay qumu lazım olurdu. Həmin gili isə kənddə yalnız "Sarıtəpə" adlanan yerdə tapmaq mümkün idi. Nənəm həmin gillə çay qumunu qatıb, palçıq düzəldərdi. Sonra başlayardı həvəslə təndir qoymağa... Təndir hazır olduqdan sonra tam quruması üçün bir həftə gözləyərdi.



...Əvvəllər kənddə qadınlar toplaşar, birlikdə təndir salıb, çörək bişirərdilər. Elə ki çörək rəfində çörək azaldı, nənəm məni köməyinə getdiyi kənd qadınlarının evlərinə yollayardı. Nənəmin onları çörək bişirməyə çağırdığını deyərdim. Çünki bu iş bir nəfərin öhdəsindən gələcək iş deyildi.

Hələ qaranlıqkən, nənəm sübh tezdən oyanar, təndir qalayar, bir böyük ləyən xəmir edərdi. İri, böyük ağac kötüklərini təndirə salıb, çırçırpı ilə təndiri alışdırardı. Yanan təndirin alovu tədricən yavaşıyar, divarları istidən qızarmış təndir çörək bişirməyə tam hazır olardı. Hava işıqlandıqca köməyə çağırdığımız qadınlar, çörək bişirmək üçün bizə gələrdilər. Süfrələr sərilərdi, lavaş açmaq üçün taxtalar, oxlovlar süfrəyə düzülərdi. Çörək bişirilərkən qadınlardan bir neçəsi xəmiri kündələyər, bir neçəsi lavaş açar, biri açılan lavaşı təndirə salar, biri isə bişən çörəyi təndirdən çıxarardı. Çörək təndirdən çıxarılarkən, insanı məst edən heyranedici ətri bütün kəndə yayılardı.

Xəmirin nazını çəkə-çəkə çörək bişirən bu zəhmətkeş qadınlar deyəgülə söhbətləşər, günün hardan çıxıb, harda batdığının fərqində belə, olmazdılar. Elə ki axşamçağı olardı, mal-heyvanın örüşdən gələn vaxtı qadınlar işlərini yekunlaşdırıb evlərinə qayıdardılar. Nənəmsə hər gedənə isti çörəkdən pay verərdi. – Niyə evdə çörək yoxdu? deyənlərə: Nənəm belə cavab verərdi: – Təndirdən təzə çıxmış isti çörəyin dadı başqa olur. Onun bu sözünü kəndin təndir çörəyinin həsrətini çəkərkən anlayıram. Həqiqətən də, təndirdən çıxan o isti çörəyin yerini sənaye üsulu ilə bişən heç bir çörək əvəz etmir. Yəqin ki, dadanlar unutmayıblar təndirdən çıxan isti çörəklə pendir əzməsinin ləzzətini... Bəzən yolum kəndə düşür, hər tərəfdə o çörək ətrini axtarıram. Çox təəssüf ki, indi nə təndir qalıb, nə də onun çörəyi...

Azərbaycanda təndirin "çala", "doyma", "şirəli", "qoyma", "kürə" və digər növləri var. Yeraltı və yerüstü təndirlərdə müxtəlif lavaşlar, təndir çörəyi, bəyimçörəyi, müxtəlif xörəklər hazırlanır. Lavaşın ən nazik növünü isə "yuxa", yaxud "yayma" adlandırırlar. Təndirdə çörək bişirmə mədəniyyəti xalqımızın etnoqrafiyasının nümunəsidir.

Müstəqil Azərbaycan dövləti nənə-babalarımızın maddi-mənəvi mirasına sahib çıxır, onları qoruyur, mühafizə edir, yaşaması üçün tədbirlər görür, şərait yaradır. Dövlətimiz tərəfindən milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi qoruyub yaşatmaları məqsədilə şəhərimizdə gənclərimiz üçün tez-tez bu ənənələrlə bağlı müxtəlif tədbirlər keçirilir. Elə ötən ilin avqust ayında muxtar respublikada "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində "Naxçıvan çörəkləri" festivalı keçirilib. Bu tədbirin məqsədi gənclərə min illər boyu yaradılmış çörəkçilik ənənələrini aşılamaq və əsrlər boyu bu xalqa, bu millətə mənsub olan adət-ənənələrimizi qoruyub yaşatmaq idi.

✍ **Gülcamal TAHİROVA**

**İtmişdir**

Əmirov Əmir Məxsud oğlunun adına olan evin MH-0009443 seriya nömrəli reyestrdən çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 129